# MÜASİR KİTABXANALARDA MENECMENTİN TƏŞKİLİ

**M.MƏMMƏDOV**
**Pedaqoqika üzrə fəlsəfə doktoru,dosent**

*Elmi məqalədə bazar iqtisadiyyatı şəraitində müasir kitabxanalarda menecmentin təşkili, kitabxanaların sosialmədəni həyatımızda rolu, kitabxana fondlarında saxlanılan sosial-mədəni informasiyaların ötürücüsü rolunda çıxış edən kitabxanaların əhəmiyyəti, kitabxanaların ənənəvi funksiyalarından biri kimi əhalinin asudə vaxtının təşkili və bununla da kitabxana menecmentinin müxtəlif metodlarından istifadə edərək cəmiyyətin sosial-mədəni qaydalarının formalaşmasına kömək etmək məsələləri əsaslandırılmışdır.*

**Açar sözlər**: *Kitabxana, kitabxana menecmenti,menecment və idarəetmə, sosial-mədəni mühit, xüsusi hadisələr, sosial-mədəni mənanın transliyasiyası, kitab mədəniyyəti*

Müasir şəraitdə yeni informasiya texnologiyalarından istifadə etmək nəticəsində formalaşan müasir sosial-kommunikativ məkanda kitabxanaların fəaliyyəti keyfiyyətcə dəyişir və prinsipcə başqa bir fəaliyyət səviyyəsinə qalxır. Bu gün kitabxana özünü çoxtərəfli funksiyalar yerinə yetirən mədəni – informasiya mərkəzi kimi göstərir. Əsas odur ki, o, ərazinin sosial-mədəni planlaşdırılması, onun insan və sosial kapitalının formalaşdırılması prosesinin fəal iştirakçısına çevrilir.

Belə dəyişikliklər kitabxana fenomeninin ictimai və mədəni meyllər sahəsində reallaşması kontekstində insanın sosial və fərdi inkişafının çoxşaxəliliyini müəyyən edən dəyərli-mənalı plüralizm kontekstinin də daxil olduğu şəxsiyyətin təşəkkülündə onun oynadığı rolu açıb göstərməyə edilən cəhdin açıq-aydın təhlil olunmasına gətirib çıxarır.

Hazırda kitabxanaların fəaliyyətində özünü göstərən kommunikativliyin müxtəlif formaları: oxunmuş kitablar haqqında təəssüratların oxucu və kitabxanaçılar tərəfindən birgə müzakirəsi; oxucunun görüş və bilik dairəsinin genişləndirilməsi, intelektual qabiliyyətlərin inkişafına yardım edilməsi, yeni vərdiş, bacarıq, səriştə və təcrübənin formalaşdırılması, kitab mədəniyyətinin (geniş mənada – humanist dəyərlərin) aşılanması və s. ön plana keçir. Bu cəhətdən hazırki şəraitdə kitabxana menecmenti mühüm əhəmiyyət kəsb edir.

İngilis sözü olan "menecment" öz kökləri ilə "manus" yunan sözünə uyğun gəlir ki, bu da "əl", "güc" deməkdir. Bu anlayışa ingilis dilinin mükəmməl Oksford lüğətində aşağıdakı izahlar verilir:

1. adamlara münasibət tərzi;
2. səlahiyyət və idarəetmə məharəti;
3. idarəetmə orqanı və inzibati vahid;

4. xüsusi bacarıq qabiliyyətinə və inzibati vəzifələr.

Bütün bunlara əsasən, demək olar ki, menecment idarəetmə deməkdir, onun, yəni idarəetmənin daha ali, daha geniş təzahürüdür. İdarəetmə elminin əsasını qoyan F. Teylor tədqiqatları dövründən (XIX əsrin – 90-cı, XX əsrin 10-cu illəri) bu günə qədər idarəetmə elmi və onun praktikası dərin təkamül dövrü keçmiş və elmi – texniki tərəqqinin, yeni texnologiyanın güclü inkişafı idarəetməni daha da mürəkkəbləşdirmişdir. Bu hal idarəetmə funksiyalarını yerinə yetirən biznesmen – sahibkarların rolu və statusunun müəyyən cəhətlərinin yüksək səviyyələrdə idarəedənlərin faəliyyət dairəsinə keçməsinə gətirib çıxarır. Bununla bağlı, xarici ölkələrdə "menecment konsepsiyası" formalaşmış və "menecment ifadəsi də şübhəsiz ki, öz başlanğıcını elə buradan götürür.

Bazar iqtisadiyyatı şəraitində menecment iqtisadiyyatın müxtəlif sahələrində geniş yayılmış idarəetmə nəzəriyyəsi və praktikasının aktual istiqamətlərini özündə əks etdirən elm sahəsi kimi xarakterizə olunur. Onun əsasında xüsusi hadisələrin yaradılması və idarəetmə mexanizmi durur ki, o da konkret təşkilatın ixtisaslaşmasından və qarşısına qoyduğu məqsəddən asılı olaraq marketinq kommunikasiyası üsul və müstəqil məhsul-yaradıcı-istehsalat prosesinin nəticəsi kimi istifadə oluna bilər. Xüsusi hadisələrin reallaşmasının bu formasından asılı olmayaraq menecment özünü göstərir. O, xüsusi hadisələr ideyasını real əmələ çevirir. Praktiki səviyyədə bu virtual ideya onun hipotetik strukturu ilə özünün təsərrüfat subyektinin-kommunikasiyanın potensial iştirakçısı kimi ayrılması ifadə olunan məntiqin layihə təfəkküründə, eyni zamanda xüsusi hadisələrin müvafiq ssenariləri, kommunikasiya kanalları ( və ya translyasiya formaları) işlənib hazırlanır.

Beləliklə, xüsusi hadisələrin müvafiq kommunikasiyalar formasında təşkili və işlənməsi təşkilatın özünün, eləcə də məqsədli istehsalçının maraq və məqsədlərinə əsaslanır. Şübhəsiz ki, təqdim olunmuş sxem bazar qarşılıqlı təsirinin mahiyyətini təşkil edən dərin praqmatik yanaşmanı əks etdirir. Bu çərçivədə menecment istehlakçının mədəni xidmətlərinin dəyişən tələbləri altında təkliflərin yaranmasında əsas instrument rolu oynayır. Kitabxana müəssisələri üçün bu cür xüsusi yanaşma nəinki haqq qazanılmaz hesab olunur, eyni zamanda kitabxana fəaliyyətinin özünün mahiyyətinə ziddir. Kitabxana maraqlar və tələbatlar sisteminə, eləcə də dəyər – məna dominantına toxunan cəmiyyətdə baş verən sosial mədəni dəyişiklikləri çevik nəzərə alır. Bu məsələni sırf iqtisadi kateqoriya kimi təhlil etməkdən uzaqlaşmağa və onun sosioloji və kulturoloji potensialını açıb göstərməyə imkan verir.

Burada əsas məsələlərdən biri də bilavasitə dəyişən sosial-mədəni məkanda bu sosial və mədəni əhəmiyyətli informasiyaların verilmə formalarının seçilməsinə aiddir. Bu nöqteyi-nəzərdən kitabxana menecmenti özündə müasir insanın mədəniləşməsi və həmçinin texnoloji "fəthetmə" və informasiya axının yüksək təmərküzləşməsi şəraitində insan və sosial kapitalın formalaşması, toplanması və saxlanmasına yardım edilməsi sahəsində müasir kitabxananın gələcək fəaliyyətinin perspektiv istiqamətini əks etdirir.





Hazırkı dövrdə kitabxana müəssisəsi, onun fondlarındakı sənədlərdə əksini tapan yeni ideya və mənaların verilməsi formalarının yaranmasına səbəb olan kitabxana menecmenti müasir kitabxana texnologiyasından birgə istifadə etməyə şərait yaradır. Bu zaman vətən və xarici ənənələr əsasında ərazinin sosial-mədəni layihələşdirilməsi sahəsində müasir kitabxanaların menecmentdən istifadə edilməsi təcrübəsinin tədqiq olunması ciddi maraq doğurur.

Məlum olduğu kimi kitabxana arxivlərində saxlanan sosial-mədəni informasiyaların ötürücüsü rolunda çıxış edən kitabxana müəssisələri buraya gələnlərin yalnız sosial təcrübəsinə, təkrar istehsalına deyil, eyni zamanda öz əksini əsas mədəni dəyərlər və mənalarda tapan mədəniyyətinin onlar tərəfindən mənimsənilməsinə də kömək edir. Bu konteksdə müasir kitabxanalarda mədəni-tarixi ənənələrin aktuallaşması və qorunub saxlanması, onun informasiya-texnoloji məkanın sosial-kommunikativ adaptasiyası-uyğunlaşması kimi kitabxana fəaliyyəti sahələrini də əhatə edir. Nəzərdən keçirilən yönümlər kitabxana müəssisələrinin uşaq və gənclər istiqamətli işlərin reallaşması zamanı xüsusi aktuallıq kəsb edir.

Aydındır ki, sosialmədəni materialın bu cür ötürülmə formaları müasir uşaqları klip təfəkkürünün aradan qaldırılmasına yönəldir, onlarda zəruri informasion səriştə formalaşdırır. Nəticədə uşaqlarda sosial qarşlıqlı təsirin baza vərdişini formalaşdırır, onları cəmiyyətin mədəni – tarixi ənənələrinə qovuşdurur, başqa xalqların mədəbiyyətləri ilə tanış edir, bütövlükdə şəxsiyyətin təşəkkülünə təsir edir. Başqa sözlə, kitabxana sosialmədəni təcrübə və mənanın verilməsi məqsədilə kitabxana menecmentinin metodlarından istifadə edərək qlobal – informasiya və multikultural məkanda yaşayan uşaqların baza sosial və mədəni praktikanı mənimsəməsinə öz töhfəsini bəxş edir.

Nəzəri ədəbiyyatlardan məlum olduğu kimi menecment və idarəetmə elm və praktikadır. Bunların arasındakı fərq onların mahiyyətində, məzmununda deyil, fəaliyyət tərzindədir, hər ikisi fəaliyyət miqyasından asılı olmayaraq, əsasən eyni funksiyaları yerinə yetirirlər. Bununla belə, qərb mütəxəssislərin ədalətli olaraq dedikləri kimi idarəetmənin vahid idealı idarəetmə maddələri ola bilməz, çünki hər bir müəssisə özünəməxsus nadirlik təşkil edir, və işlənib hazırlanmış modellərdən özünəxas olanı seçməlidir:

1. Dinc mühitdə səmərəli firmadaxili idarəetmə modeli
2. Kifayət qədər dinamik və müxtəlif xarakterli bazar şəraitində idarəetmə modeli
3. Dinamik elmi – texniki tərəqqi şəraitində iderəetmə modeli

4. Firmanın xarici mühitin təsiri altında gözlənilmədən, daxili səbəblərdən törəyən, yaxud öz-özünə əmələ gələn problemlərə uyğunlaşma modeli.

Seçilməkdə olan bu modellərin hər birini , əsasən üç amil müəyyənləşdirir:

1. firmanın iriliyi, yaxud kiçikliyi;
2. onun məhsulunun xarakteri;
3. firmanın fəaliyyətində olduğu mühit.

Elmi və praktiki nailiyyətlərə əsaslanan müasir idarəetmə - menecment sistemli mümkün qədər sadə və çevik olmalıdır. Onun başlıca meyarı ilə davamlı rəqabət effektivlik olmalıdır.

Məlum olduğu kimi kitabxanaların ənənəvi funksiyalarından biri əhalinin asudə vaxtının təşkilidir. Başqa sözlə desək, asudə vaxt mədəniyyəti kontekstində nəzərdən keçirilən kitabxana əlaqəsi əvvəlcədən mədəni dəyər və mənaların aktuallaşmasına yönəlmişdir. Nəticə olaraq kitabxanalar menecmenti müxtəlif metodlarından fəal iştirak edərək cəmiyyət və şəxsiyyətin sosial-mədəni qaydalarının formalaşmasına real kömək etmək imkanı qazanır. Buna misal olaraq 2011-ci ildə öz yüzillik yubileyini bayram edən Nyu-York Ümumi Kitabxanasını misal göstərmək olar. Belə ki, həmin ilin mayında geniş miqyaslı aksiya - 500 nəfərin iştirak etdiyi "Gələcəyini tap" (Find the Future) adlı oyun keçirildi. Kitabxana binası bir gün ərzində macəra - intelektual vaxt keçirmək istəyən çoxsaylı həvəskarların toplantı yerinə çevrildi. Buraya asudə vaxtın mənasız keçirilməsini rədd edən şəxslər kateqoriyası toplaşmışdı. Hadisə iştirakçıları komandalara ayrılaraq müxtəlif vəzifələr yerinə yetirirdilər. Onlar məsələlər, tapmacalar, bilmecələr həll edir, bir məqsədə - vahid tarix tərtib etməyə nail olmaq üçün mücərrəd təlqinlərdən istifadə edirdilər. Bir tərəfdən aydındır ki, bu cür hadisələrin reallaşması kitabxana müəssisəsinin potensial qonaqları arasında cazibədarlığına təsir edir, daha doğrusu, o, dərin praqmatik rol oynayır. Digər tərəfdən kitabxananın həyata keçirdiyi bu cür tədbirlər aşağıdakı mühüm sosial-mədəni funksiyaları yerinə yetirir:

- Şəxsiyyəti intelektual və mənəvi cəhətdən inkişaf etdirən, əhalinin mədəni asudə vaxt mədəniyyətinin təşkili;
- əhalinin asudə vaxt mədəniyyətinin formalaşmasına yardım edilməsi;
- kitab mədəniyyətinin əsaslarının aşılanması və geniş yayılması;
- yarımkommunikativ məkanda mövcud olan şəxsiyyətin kollektiv vərdişlərinin inkişaf etdirilməsi;
- şəxsiyyətin dünyagörüşü plüralizm və urbanist-texnokratik mühit şəraitində (hadisə iştirakçılarının yalnız əsəb sistemi xəstəliyindən, stress və digər "urbanist" təzahürlərdən deyil, bütövlükdə orqanizmin xilas olması imkanı vermək, mədəni asudə vaxtdan həzz almaq, "vaxt





keçirmənin mədəni formalarının "daxil edilməsi" və s. ) şəxsiyyətin sabit inkişafına kömək edilməsi;

- əhalinin həyatının keyfiyyətcə yüksəldilməsinə töhfələr bəxş edilməsi.

Nəticə olaraq onu təsdiq etmək olar ki, kitabxana menecmentinin metodlarının fəaliyyətinin tətbiq edilməsi kitabxanaya öz vəziyyətini sosial-mədəni təsisatlar sistemində möhkəmləndirməyə imkan verir. Bundan başqa informasiyalaşdırma və qloballaşma şəraitində kitabxanalarda toplanan, qorunan, bərpa edilən və yenidən işlədilən dəyər və mənaların verilməsinin ən aktual formalarından biri olur.

## ƏDƏBİYYAT:

*1. Xələfov A.A. Kitabxana və kommunikasiya // Kitabxanaçılıq və informasiya: Elmi nəzəri və praktiki jurnal. Bakı, 2011, s. 7-15*

*2. Qurbanov A.İ. və b. Kitabxana-informasiya fəaliyyətinin marketinq və menecmenti Bakı, 2012, 207 s.*

*3. Бабыяева Н.В. Библиотековедение: Социокультурный подход. М., 2002, 313 с.*

## Organization management in modern library

**M.Mammadov**

**Summary**

*Organization management in modern library in market economy, the role of library in social and cultural life, importance of libraries is grounded in the article.*

**Key words:** *Library, library management, social-culture environment, special events, broadcast of social-culture meaning, book culture*

## Организация и управление современных библиотек

**М.Мамедов**

**Резюме**

*В статие расматрено проблема библиотечного менечмента в условиях рыночной економики. Растуший роль библиотек в повсезневной жизни рассматривается как вызов XXI века.*

**Ключевые слова:** *современная библиотечная деятельность, библиотечный менеджмент, социально-культурной информация.*